**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# BEYNƏLXALQ MÜNASİBƏTLƏRƏ ÜMUMDÜNYA TİCARƏT TƏŞKİLATININ TƏSİRİ: MÖVCUD VƏZİYYƏT VƏ PERSPEKTİVLƏR

İxtisas: 5901.01 Beynəlxalq münasibətlər

Elm sahəsi: Siyasi elmlər

İddiaçı: **Sevda Elbrus qızı Hüseynova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq
üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2021**

Dissertasiya işi Azərbaycan Turizm və Menecment Universitetinin Beynəlxalq münasibətlər kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: AMEA-nın müxbir üzvü, professor
**Musa Cəfər oğlu Qasımlı**

Rəsmi opponentlər: siyasi elmlər doktoru, dosent
**Sevil İmamverdi qızı Məmmədova**

siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
**Nərgiz Cəlil qızı Nağıyeva**

siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
**Xəyyam Fərman oğlu İsmayılzadə**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: Akademik
____________________ **Urxan Kazım oğlu Ələkbərov**

Dissertasiya şurasının elmi katibi: siyasi elmlər doktoru, prof.əvəzi
____________________ **Ziyafət Ziya qızı Həbibova**

Elmi seminarın sədri: siyasi elmlər doktoru, prof.əvəzi
____________________ **Adil Mirabdulla oğlu Mirabdullayev**

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Məlum olduğu kimi, beynəlxalq iqtisadi əməkdaşlığın inkişafı ilk növbədə ölkələrin qarşılıqlı əlaqələrinin genişləndirilməsini tələb edir. Bu zaman əsas istiqamətlərdən biri beynəlxalq iqtisadiyyatı tənzimləyən müxtəlif təşkilatlarla əlaqələri genişləndirməkdən ibarətdir.

Soyuq müharibə dövrü başa çatdıqdan sonra, dünya ölkələri iqtisadi-siyasi inteqrasiya prosesləri və texnologiyanın inkişafı sayəsində bir-birindən xeyli dərəcədə qarşılıqlı asılı və əlaqəli olmuşdur. Bu vəziyyət və beynəlxalq münasibətlərdə olan problemlər çoxtərəfli formatda əməkdaşlığı genişləndirmək üçün yeni təşkilatların və tənzimləyici qaydaların yaradılmasına, siyasi qərarların qəbul edilməsində mövcud olan hökumət səlahiyyətləri çərçivəsinin daha geniş inteqrasiya etdirilməsinə ehtiyacı ortaya çıxarmışdır. Mövcud şəraitdə ölkələrin strateji qərarlarının qəbul edilməsi proseslərinə bilavasitə təsir göstərən beynəlxalq iqtisadi təşkilatlar, o cümlədən Ümumdünya Ticarət Təşkilatı (ÜTT) öz vasitəçilik, mübahisələrin həlli, sülhün təminatı, sanksiyaların verilməsi və s. səlahiyyətləri ilə dünya siyasətinin fəal aktorlarından birinə çevrilmişlər. Bu məsələlərin araşdırılması problemin tədqiqini aktual edən amillər sırasındadır. Bu baxımdan dissertasiya tədqiqatı mövzusunun aktuallığını aşağıdakı müddəalarla təqdim etmək olar:

- Beynəlxalq təşkilatların qloballaşma proseslərinə, onların strukturu və fəaliyyətinə, o cümlədən daxilinə təsiri nəticəsində dəyişməsi məsələlərinə az diqqət yetirilmişdir. Bu amil, xüsusilə, Ümumdünya Ticarət Təşkilatı ilkin olaraq qeyri-siyasi bir qurum kimi təsis edilmiş, lakin sonradan qlobal proseslərin təsiri ilə daha çox siyasiləşən beynəlxalq qurumlara aiddir. Təşkilatın fəaliyyəti göstərir ki, beynəlxalq ticarətin tənzimlənməsi məqsədi ilə yaradılmış ÜTT getdikcə siyasi məsələlərin həllində də yaxından iştirak edir. Birbaşa təzyiq deyil, “yumşaq güc” metodundan istifadə etməklə beynəlxalq iqtisadi təşkilatlar daha çox dünyanın siyasi gündəliyini müəyyənləşdirirlər. Ona görə də həmin təşkilatlara olan maraq artır. Bu amillər də tədqiqatın aktuallığını göstərir.
- Qlobal inteqrasiya proseslərinin ən təsirli təşkilatlarından biri olan Ümumdünya Ticarət Təşkilatına daxil olan hər bir milli iqtisadiyyatın

ali məqsədi milli maraqlarının təminatı şərtilə bu üzvlükdən maksimum az itki ilə öz iqtisadi inkişaf strategiyasını reallaşdırmaqdan ibarətdir. İnkişaf etməkdə olan ölkələrin Ümumdünya Ticarət Təşkilatına üzvlüyündən necə faydalanması hətta qloballaşmanın tərəfdarları arasında da birmənalı qarşılanmır. Bununla belə, qloballaşmanın qəti əleyhdarları da ÜTT üzvlüyünü labüd hesab edirlər. Bu baxımdan müasir beynəlxalq münasibətlərdə iqtisadi əməkdaşlığın aktual məsələlərindən biri ÜTT-nin həmin münasibətlərin tənzimləyici aktoru kimi rolunun araşdırılmasıdır.

- Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına üzv olması ilə qlobal ticarətə qoşulması və əlverişli azad bazar iqtisadiyyatının formalaşmasında mühüm geosiyasi və geoiqtisadi amillər rolunu oynaya bilər. Bu baxımdan da, Azərbaycan Respublikasının dünya iqtisadiyyatına fəal şəkildə inteqrasiya etdiyi, xüsusilə də Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən iqtisadiyyatın ixrac yönümlüyünün təkmilləşdirilməsini ölkənin xarici iqtisadi siyasətinin əsas hədəflərindən biri kimi müəyyən etməsindən sonra, ölkəmizin Ümumdünya Ticarət Təşkilatı ilə əməkdaşlığının siyasi aspektlərinin öyrənilməsi vacibliyi də mövzunun aktuallığını göstərir.

- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müsahibələrinin birində qeyd etmişdir: “Biz Avropa İttifaqı və Azərbaycan arasında biznesin sadələşdirilməsi üzrə çox vacib saziş imzalamışıq. Bu, bizim iş adamlarına və avropalılara bir-birilərinə daha asan çıxışı təmin edəcəkdir. Bu isə öz növbəsində xalqlar arasında əlaqələri gücləndirəcək. Çünki xalqlar arasında əlaqələr olmadan istənilən siyasi çərçivə bütöv deyil”[1]. Bu fikir bir daha sübut edir ki, Azərbaycan Respublikasının Avropa ümumi bazarına çıxışı həm iqtisadi, həm də siyasi əlaqələrin genişləndirilməsi üçün vacibdir və məsələlərin baxılan problem kontekstində araşdırılması xüsusi əhəmiyyət kəsb edir.

Problemin işlənmə dərəcəsi ilə əlaqədar qeyd etmək lazımdır ki, araşdırılan problem Azərbaycan siyasətşünaslığında indiyədək ayrıca tədqiqat mövzusu olmamışdır. Bununla belə, xarici ölkələrdə problemin

---

[1]Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dövlət quruculuğunun əsas istiqamətləri haqqında “İqtibaslar” kitabının elektron versiyası // http://azleadersays.az/az/

müxtəlif tərəflərinə həsr edilmiş araşdırmalar aparılmışdır. Tədqiqat prosesində qlobal idarəetmə, beynəlxalq münasibətlərdə hökumətlərarası təşkilatların timsalında Ümumdünya Ticarət Təşkilatının rolu və onun siyasi qərarların qəbul edilməsinə dair əsərlər aşağıdakı kimi qruplaşdırılmışdır.

Birinci qrupa qlobal idarəetmə və beynəlxalq münasibətlərin aktoru qismində beynəlxalq iqtisadi təşkilatların tədqiq edildiyi əsərlər daxildir. Dissertasiya işində tədqiqat vəzifələrinin müəyyən aspektləri və qlobal idarəetmədə islahatlara ehtiyac Amerika siyasi araşdırmaçıları olan C. Bradford və J. Linnin, beynəlxalq münasibətlərə hökumətlərarası təşkilatların rolu isə R. Keoxeynin və C. Nayın əsərlərində araşdırılmışdır. Onlar qlobal idarəetmə təşkilatlarının səlahiyyətlərin artırılması şəklində dünya siyasətinə daha çox təsir etməsini araşdırmışlar[2].

İkinci qrupa beynəlxalq iqtisadi təşkilatların legitimliyi və müstəqil subyekt olması kimi mühüm məsələlərə həsr edilmiş əsərlər aiddir. Bu problemlər fransız politoloqu J. Kakkomonun əsərlərində tədqiqat obyekti olmuşdur. Beynəlxalq münasibətlərin müstəqil subyekti qismində beynəlxalq iqtisadi təşkilatların yaradılması və fəaliyyəti məsələləri rus araşdırmaçıları S.F. Sutirin və N. A. Lomaginin əsərlərində araşdırılmışdır. Onların əsərlərində qlobal idarəetmə təşkilatlarının normativ legitimliyinə yeni qlobal ictimai demokratik standartların tətbiqi və legitimliyin artan təsiri öyrənilmişdir[3].

Üçüncü qrupa beynəlxalq iqtisadi təşkilatların dövlətlərarası münasibətlərdə roluna qarşı tənqidi yanaşma tərəfdarlarının əsərləri aiddir. Amerikan tarixçisi S. M. Gabriela Dünya Bankının qiymətləndirmə tezisində beynəlxalq iqtisadi təşkilatların paradiqmalarına, onların dövlətlərin fövqündə təsir funksiyasına tənqidi yanaşaraq həmin münasibətlərin islahatlara ehtiyacının olması fikrini

---

[2] Keohane, Robert O.& Nye. Power and Interdependence revisited / Keohane, Robert O.&Nye, S.Joseph. Longman Classics in Political Science. – 2011 – 58 p. ; Bradford, C., Linn, J. Reform of Global Governance // Brookings Policy Brief Series, no.163, Washington DC, – 2007. – 18 p.

[3] Caccomo, J. Libéralisation Du Commerce: Chronique De La Perversion D'un Principe sur Québécois libre, Montréal, Québec / – Canada: – 2002. – 7 p ; Сутырин С.Ф. Членство в ВТО-новый этап участия России в международной торговой системе / С.Ф.Сутырин, Н.А.Ломагин. – Санкт Петербург: Издательский центр Экономического Факультета, – 2013. – 264 с.

irəli sürmüşdür. Beynəlxalq Valyuta Fondu, Dünya Bankı və Ümumdünya Ticarət Təşkilatına tənqidi yanaşmanı britaniyalı tədqiqatçı Riçard Pit öz “Qeyri-müqəddəs üçlük” (“Unholy Trinity”) əsərində əks etdirmişdir. İtaliyalı O. Kattaneo və A. Braga ÜTT üzvlüyünün fundamental dilemmalarını göstərməklə yanaşı, bu üzvlüyün arxasında dayanan tipik səbəbləri araşdırmış, həmin səbəblər arasında təkcə iqtisadiyyatın və iqtisadi mənfəətlərin dayanmadığını göstərərək üzvlüyün siyasi səbəblərini müəyyən etmişlər. Onlar ÜTT üzvlüyünün empirik nəticələrini təhlil edərək əsas çətinliklərini və ölkələrə baha başa gəlməsini əsaslandırmışlar. Rusiya politoloqu N. Şveykina dissertasiya işində beynəlxalq iqtisadi təşkilatların qlobal siyasi idarəetmədə rolunu təhlil etmiş və bu təşkilatların səlahiyyətlər çərçivəsinin genişləndirilməsinin tərəfdarı olmuşdur[4].

Dördüncü qrupa ÜTT, onun strukturu, funksiyalarına həsr edilmiş çoxsaylı əsərlər və aparılmış elmi-tədqiqat işləri daxildir. Şərti olaraq onları iki yerə bölmək olar: formal-funksional və analitik qiymətləndirmə xarakterli əsərlər. Formal-funksional kateqoriyada ÜTT iqtisadi baxımdan A. Dyumlen, S. Sutirin, N. A. Lomagin, C. Y. Stiqlitsin əsərlərində funksional iqtisadi təşkilat kimi öyrənilmiş, hüquqi baxımdan rus tədqiqatçıları İ. V. Zenkin, A. V. Danieltsev və yapon siyasi araşdırmaçısı M. Matsuşita tərəfindən onun hüquq sisteminə gətirdiyi yeni hüquqi normalar, “ÜTT hüququ” elmi xəttinin yaranması araşdırılmış və hüquqi təhlil edilmiş, tarixi-siyasi baxımından A. Rayx tərəfindən onun siyasi idarəetməyə təsiri və siyasiləşməsi öyrənilmiş, fənnlərarası obyekt baxımından E. Quzman və Q. Hellaynerinəsərlərində araşdırılmışdır. [5]

---

[4] Gabrielle M. WTO dispute settlement and Human Rights. // European Journal of International Relations. Vol. 13, no. 4, 2002. P. 753-814; Peet R. Unholy Trinity. 2nd edition. London, Zed Books; 2009. 304 p; Cattaneo O. and Barga P. Everything You Always Wanted to Know about WTO Accession. World Bank Policy Research and Working Paper 5116. Washington DC. 2009. 36 p. ; Швейкина, Н. Роль международных экономических организаций в глобальном политическом управлении (на примере Всемирной торговой организации) / Дис. для получении уч. степени кандидата политических наук. / – Москва, 2009. – 171 с

[5] Дюмулен, И.И. Всемирная Торговая Организация: Экономика, политика, право / И.И.Дюмулен. – Москва: ГОУВПО ВАВТ Мин.эконом.развития России, – 2012. – 360 с; Сутырин С.Ф. Членство в ВТО-новый этап участия России в междуна-родной торговой системе / Дж.Ю.Стиглиц, Э.Чарлтон. – Москва: Весь Мир. – 2007. – 280 с. ; Стиглиц, Дж.Ю. Справедливая торговля для всех: как

Analitik-qiymətləndirmə kateqoriyasında ÜTT-nin öyrənilməsində onun mövcudluğunu qaçılmaz və bu təşkilatın demək olar ki, qüsursuz olmasını iddia edən neoliberalist Qərb tədqiqatçıları Cons, C. Y. Stiqlits və B.M. Mavroidis və B. Hoekmanın, ədalətli ticarət münasibətlərinin yaradılması məqsədilə ÜTT-nin yenidən təşkilini irəli sürən N. Vuds, A. T. Quzmanın, BMT-nin ixtisaslaşmış orqanlarının, o cümlədən ÜTT-nin siyasələşməsini araşd V. Qebalinin əsərlərində ÜTT-nin fəaliyyəti təhlil edilmişdir[6].

Məsələn, İsrail tədqiqatçısı A. Rayxın əsəri ÜTT-nin siyasiləşməsinə həsr olunsa da, onun qlobal siyasi idarəetmə və beynəlxalq münasibətlərdə rolunu və alət kimi istifadə olunması tədqiq edilməmişdir.

Beşinci qrupa Azərbaycan Respublikasının beynəlxalq iqtisadi əlaqələri və ÜTT-yə üzvlüyü perspektivlərinə həsr edilmiş əsərlər daxildir. Azərbaycan alimlərindən M. Qasımlı, Ə. Həsənov, Ə. Muradov, R. Hüseynov, V. Bayramov və digərlərinin əsərlərində dövlətin xarici iqtisadi fəaliyyət, ələlxüsus xarici ticarət strategiyası tədqiq edilmiş, bazar iqtisadiyyatına keçid dövründə ölkənin xarici ticarət siyasəti və beynəlxalq əlaqələrinin genişləndirilməsi üçün

---

торговля может содействовать развитию / Данильцев, А.В., Основы торговой политики и правила ВТО. The World Trade Organization. Law, Practice and Policy // Ed. by M.Matsushita, T.J.Shoenbaum and P.C.Mavroidis. Oxford University Press. – New York: – 2006. – 1104 p.; / Reich, A. The threat of politicization of the World Trade Organization. Bar Ilan Univ. Pub Law Working Paper No.7-05. – 2005. – p.779-816. – 36 p. ; / Guzman, A.T. Against Global Governance in WTO. // Harvard International Law Journal, Volume 45, Number 2, Summer 2004. – p.353-365.; / Helleiner, G.K. Markets, Politics, and Globalization: Can the Global Economy Be Civilized? Global Governance. Critical Concepts in Political Science / Ed. By Thimothy Sinclair. Vol.4. – London-NY: – 2004. – 265 p. və b.

[6] Jones, K.A. Who's afraid of WTO? / K.A.Jones. – New York: Oxford University Press, – 2004. – 248p; Jones, K.A. Who's afraid of WTO? / K.A.Jones. – New York: Oxford University Press, – 2004. – 248p; Woods, N. (Co-Author) Inequality, Globalization, and World Politics / N.Woods (Co-Author). Oxford University Press, – 1999. – 366 p; Woods, N. Power Shift. Do we need better global economic institutions? / N. Woods. – London: Institute for Public Policy Research. – 2007. – 26 p.; Woods, N. Power Shift. Do we need better global economic institutions? / N. Woods. – London: Institute for Public Policy Research. – 2007. – 26 p.; Ghebali, V., Tlie Y. Politicization of UN Specialized Agencies: A Preliminary Analysis. // Millennium - Journal of International Studies. – 1985. 14: – p.317-334.

müvafiq tövsiyələr verilmişdir[7].

Bundan əlavə, Azərbaycan Respublikasının bu təşkilata üzv olub-olmaması ətrafında yaranan fikirlər müxtəlif kütləvi informasiya vasitələrində geniş müzakirə mövzusu olsa da, ölkənin ÜTT üzvlüyünün siyasi-iqtisadi vəhdətdə labüdlüyü tədqiq edilməmişdir. Azərbaycan Respublikasının ÜTT ilə əməkdaşlığının özünəməxsusluğu, üzvlüyün siyasi nəticələri məhdud miqyasda və əsasən iqtisadi baxımdan araşdırılmışdır. Bütün bunlar bir daha problemin araşdırılmasının aktual olmasını təsdiq edir.

**Tədqiqatın obyektini** ÜTT-nin müasir beynəlxalq münasibətlərə və qlobal idarəetməyə təsiri prosesi, **predmetini** isə ÜTT-nin müasir qlobal əməkdaşlıqda yeri, siyasi fəaliyyəti və perspektivləri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın başlıca məqsədi ÜTT-nin müasir beynəlxalq münasibətlərdə yerini, ticarət-iqtisadi əlaqələrin bu münasibətlərə təsirini, qloballaşan dünyanın inkişaf istiqamətlərinə uyğun olaraq dünya nizamında rolunu, Azərbaycan Respublikasının ÜTT ilə əməkdaşlıq təcrübəsi və inkişaf perspektivlərini tədqiq etməkdən ibarətdir.

Həmin məqsədə nail olmaq üçün aşağıdakı konkret tədqiqat vəzifələri müəyyənləşdirilmiş və yerinə yetirilmişdir:

- beynəlxalq iqtisadi təşkilatların fəaliyyətinin siyasi istiqamətlərini, onların dünya siyasətinə təsir gücünün əsas amillərindən biri olan milli suverenliyə təsirini öyrənmək;
- müasir beynəlxalq münasibətlərdə ticarət-iqtisadi əməkdaşlığın yerini və bundan irəli gələrək həmin əməkdaşlıqda qloballaşmanın rolunu araşdırmaq;

[7] Qasımlı, M.C. Azərbaycan Respublikasının xarici siyasəti: 1991-2003 II hissə / M.C.Qasımlı. – Bakı: Mütərcim, – 2015. – 664 s. ; Həsənov, Ə.M. Azərbaycan Respublikasının Milli İnkişaf və Təhlükəsizlik Siyasəti / Ə.M.Həsənov. – Bakı: Letterpress, – 2011. – 440 s. ; Həsənov, Ə.M. Müasir Beynəlxalq Münasibətlər və Azərbaycanın Xarici Siyasəti. Dərslik. / Ə.M.Həsənov. – Bakı: Azərbaycan. – 2005. – 631 s; Muradov, Ə.J. ÜTT-yə üzv olma: Azərbaycan və ÜTT. Xidmətlər / Ə.J.Muradov. – Bakı: Adiloğlu, – 2005. – 26 s.; Huseynov, R. Welfare and Economy - Wide effects of Azerbaijan’s Accession to the World Trade Organization: A quantitative Assessment / Inaugural Dissertation zur Erlangung des Grades Doktor der Agrarwissenschaftgen./ – Bonn, 2015 – 195 p; Bayramov, V.İ. Azərbaycanın ÜTT-ə Üzvlük Prosesinin Qiymətləndirilməsi üzrə Siyasət Sənədi / V.İ.Bayramov. – Bakı: İqtisadi və Sosial İnkişaf Mərkəzi, – 2010. – 28 s.

- qloballaşma şəraitində ÜTT-nin beynəlxalq münasibətlərə təsir imkanlarını və perspektivlərini öyrənmək;
- ÜTT-nin təsis məqsədlərini, başlıca funksiyalarını, siyasiləşməsi motivlərini, çoxtərəfli ticarət sisteminin əsas prinsiplərini və təşkilatda islahatların aparılması zəruriliyini öyrənmək;
- ticarət mübahisələrinin nizamlanmasında ÜTT-nin rolunu aydınlaşdırmaq və Mübahisələrin Həlli Orqanını, ÜTT hüquq sistemini və onun prinsiplərini tədqiq etmək;
- ÜTT-nin dövlətlərin fövqündə dayanan institut kimi mövqeyini, lobbiçilik səlahiyyətini, siyasiləşmə amillərini, onun beynəlxalq ticarəti siyasi-iqtisadi təsirini təhlil etmək;
- Azərbaycan Respublikasının ÜTT ilə əməkdaşlığı üçün yaranmış zəmini, üzvlüyün müəyyən coğrafi, iqtisadi və siyasi amillərinə görə Azərbaycanla oxşarlığı olan digər ölkələrin təcrübəsini müqayisəli şəkildə araşdırmaq;
- əməkdaşlığının perspektivlərini, inkişaf etməkdə olan ölkə kimi ÜTT üzvlüyün Azərbaycan Respublikasına gətirəcəyi faydaları araşdırmaq və perspektivləri müəyyənləşdirmək.

**Tədqiqat metodları.** Mövzu tədqiq edilərkən elmilik, tarixi fakt və hadisələrə obyektiv və tənqidi münasibət, təhlil, müqayisəli təhlil, analiz olunmuş məlumatların induksiyası əsas tədqiqat üsulları kimi seçilmişdir. Problemə dair məsələlər konkret tarixi və siyasi-iqtisadi təhlillər əsasında, mənbə, fakt və məlumatların kompleks şəkildə və tənqidi surətdə öyrənilməsi əsasında sistemləşdirilmiş, fakt və hadisələrin ümumiləşdirilməsi ilə ümumi mənzərənin yaradılmasına səy göstərilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiya işi çərçivəsində müdafiəyə çıxarılan əsas müddəalar aşağıdakılardır:

- müasir beynəlxalq iqtisadi təşkilatlar dünya siyasətinin aktoru kimi rolu artır və onlar qeyri-iqtisadi, o cümlədən siyasi məsələlərin həllində iştirak edirlər;
- beynəlxalq iqtisadi təşkilatlar siyasiləşirlər və ÜTT bunun ən ümdə nümunəsidir. ÜTT qloballaşan dünya nizamının tənzimlənməsinə təsir edir, habelə bu təsirin uzunmüddətli saxlanılması üçün ÜTT-də ciddi islahatlar aparılması şərtdir;
- Azərbaycan üçün ÜTT üzvlüyü müəyyən şərtlər çərçivəsində mümkündür və faydalıdır.

- Azərbaycanın ÜTT üzvlüyü üçün hazırda əlverişli şərait formalaşmışdır.

**Tədqiqatın elmi yeniliyi**. Dissertasiya işi problemin qoyuluşu, məsələlərin təhlili və elmi nəticələri ilə Azərbaycanda araşdırılan ilk kompleks tədqiqat işidir.

Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- iqtisadi təşkilatdan daha üstün olan ÜTT qloballaşmanın siyasi aktoru kimi öyrənilmişdir;
- beynəlxalq iqtisadi təşkilatların qlobal idarəetməyə təsir vasitələri araşdırılmışdır;
- qloballaşmanın bir hissəsi olaraq davamlı inkişaf məqsədlərinin ÜTT tərəfindən necə tətbiq və icra olunması, təşkilat tərəfindən yumşaq gücdən istifadə edilərək beynəlxalq münasibətlərə mövcud və gələcək təsir amilləri öyrənilmişdir;
- ÜTT-də edilməsi vacib olan islahatlar təhlil edilmişdir;
- Azərbaycan Respublikası üçün ÜTT ilə əməkdaşlıqdan gözləntilər və perspektivlər araşdırılmışdır;
- beynəlxalq münasibətlərdə ÜTT-nin rolunun siyasi təhlili aparılaraq, beynəlxalq aləmdə onun rolunun artırılması, həm də yerli səviyyədə Azərbaycan Respublikası ilə əməkdaşlığı üçün səciyyəvi tövsiyələr verilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın ümumiləşdirilmiş nəticələrindən və başlıca müddəalarından ÜTT-nin siyasiləşməsi probleminin öyrənilməsində, beynəlxalq münasibətlərdə hökumətlərarası təşkilatların rolunun araşdırılmasında, Azərbaycan Respublikasının ÜTT ilə əməkdaşlığı və perspektivlərinə dair əsərlərin, ÜTT-nin siyasi təhlilinə aid dərslik, dərs vəsaiti və monoqrafiyaların yazılmasında istifadə oluna bilər.

Tədqiqatın nəticə və müddəalarından beynəlxalq münasibətlərdə ÜTT-nin rolunun, siyasi qərarlara təsiri imkanlarının, habelə Azərbaycan Respublikasının ÜTT-yə üzvlüyü prosesinin təhlilində, Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin və Azərbaycan ilə əlaqədar ÜTT-də yaradılmış İşçi Qrupun əməli fəaliyyətində, beynəlxalq iqtisadi təşkilatlarla, xüsusilə də ÜTT ilə qarşılıqlı əlaqələrin ümummilli mənafelərə uyğun hazırlanmasında faydalı olar.

**Aprobasiyası və tətbiqi**. Dissertasiya işi Azərbaycan Turizm və Menecment Universitetinin “Beynəlxalq münasibətlər” kafedrasında

müzakirə olunmuş və müdafiəyə tövsiyə edilmişdir. Dissertasiya işinin əsas müddəaları və nəticələri iddiaçının Azərbaycanda və xarici ölkələrdə dərc olunmuş məqalələrində, ölkə və beynəlxalq səviyyəli elmi-nəzəri, elmi-praktik konfranslarındakı məruzələrində öz əksini tapmışdır.

**İşin yerinə yetirildiyi təşkilatın adı.** Azərbaycan Turizm və Menecment Universiteti.

**Dissertasiyanın strukturu, bölmələr üzrə və ümumi həcmi işarlərlə.**Dissertasiya işi giriş, üç fəsil, səkkiz paraqraf, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Giriş 27 669 işarə, I fəsil 70 614 işarə, II fəsil 135 322 işarə, III fəsil 88 939 işarə, Nəticə 25 892 işarə olmaqla, işin ümumi həcmi 377 514 işarədir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı əsaslandırılmış, işlənmə dərəcəsi şərh edilmiş, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, metodları müəyyənləşdirilmiş, müdafiəyə çıxarılmış əsas müddəalar, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, approbasiya və tətbiqi, dissertasiyanın struktur bölmələri verilmişdir.

Dissertasiya işinin "**Beynəlxalq iqtisadi təşkilatlar dünya siyasətinin aktorları kimi**" adlanan birinci fəslinin "**Beynəlxalq iqtisadi təşkilatların fəaliyyətinin siyasi aspektləri**" başlıqlı birinci yarımfəslində beynəlxalq iqtisadi təşkilatların qlobal idarəetmə aktorları kimi kateqoriyaları[8], "beynəlxalq siyasi iqtisadiyyat" anlayışlarının təfsiri, siyasi iqtisadiyyatın üç təsnifat istiqaməti, XXİ əsrin əvvəllərində surətlə artan hökumətlərarası təşkilatlar, onların dünya siyasəti və iqtisadiyyatında rolunun güclənməsi və ən başlıcası bu təşkilatların siyasiləşməsi tədqiq edilmişdir. Qeyd edilmişdir ki, beynəlxalq təşkilatların siyasiləşməsinə iki yanaşma mövcuddur: beynəlxalq iqtisadi təşkilatların təsis məqsədindən irəli gələrək siyasi səlahiyyətinin artmasına institusional yanaşma və cəmiyyətin fundamental transformasiya proseslərinin bir hissəsi olaraq beynəlxalq

[8] Jing, G. Global governance and developing countries: The implications of the rise of China / G Jing, J.Humphrey, D.Messner Bonn: Discussion Paper // Deutsches Institut für Entwicklungspolitik; 18/2007. 36 p.

təşkilatların siyasiləşməsinə yönələn cəmiyyət əsaslı yanaşma[9]. Bu iki yanaşma müqayisəli təhlil əsasında yarımfəsildə əsaslandırılmışdır. Beynəlxalq iqtisadi təşkilatların dünya siyasətinə təsir gücünün əsas amillərdən biri də onların milli suverenliyə təsiri olduğu qeyd edilir.

Yarımfəsildə həmçinin "yumşaq güc" anlayışı tədqiq olunan problem kontekstində təhlil edilmiş və belə qənaətə gəlinmişdir ki, Nay tərəfindən "zor gücü" (hard power) "digərlərini öz preferensiyaları və strategiyalarına zidd olanı qəbul etməyə vadar edildiyi bir yoldur", "yumşaq güc" isə "digərlərinin də sən istədiyini özləri də istəyərək qəbul etdiyi bir yol" kimi təsvir edildiyi güc[10] beynəlxalq iqtisadi təşkilatlar, o cümlədən Ümumdünya Ticarət Təşkilatı tərəfindən necə istifadə olunur. Əsaslandırılır ki, beynəlxalq iqtisadi təşkilatların dünya siyasətinə təsiri getdikcə artır. Təşkilat və ya idarəetmə strukturundan asılı olmayaraq, həmin təşkilat dolayı yolla onun əsas aparıcı güc dövlətlərinin siyasi iradəsini icra etməkdədir və bu təşkilatlardan da daha çox faydalananlar inkişaf etməkdə olan dövlətlərin hesabına həmin böyük güc dövlətləri olur.

**"Müasir beynəlxalq münasibətlərdə ticarət-iqtisadi əməkdaşlığın yeri"** adlanan ikinci yarımfəsildə vurğulanır ki, ticarət-iqtisadi əməkdaşlıq əzəldən ilkin iqtisadi münasibətlərin əsasını təşkil etmişdir və müasir şəraitdə bu əməkdaşlıq beynəlxalq iqtisadi münasibətlərin mühüm komponenti olmaqla onun əsas mühərrikidir.

Yarımfəsildə beynəlxalq ticarət-iqtisadi siyasətdə uzun illərdir ki, bir-biri ilə bağlı olan iki cərəyan 1) beynəlxalq ticarətin liberallaşdırılması: iştirakçı dövlətlər ilə sülh əməkdaşlığı sayəsində istehsal qüvvələrinin beynəlmiləlləşməsi, ticarət məhdudiyyətlərinin aradan qaldırılması, beynəlxalq əmək bölgüsünün dərinləşməsi; və 2) mühafizəkarlıq (proteksionizm): ölkəyə "yad" kapitalın və məhsulların girişinin məhdudlaşdırılması və bununla daxili iqtisadi siyasətə digər strukturların siyasi təsirinin minimuma endirilməsi[11] tədqiq edilərək ÜTT tərəfindən belə ticarət-iqtisadi əməkdaşlığın qloballaşmada tətbiqi yolları göstərilir.

---

[9] Archer, C. International Organizations / C.Archer. – New York: Routledge. – 2003. – 204 p.

[10] Най, Дж. Гибкая власть / Дж.Най. – Москва. Тренды. - 2006. – 221 с.

[11] Kornai, J. The Road to a Free Economy. Shifting from a Socialist System: The Example of Hungary / J.Kornai. – New York: W.W.Norton, – 1990.

Yarımfəsildə həmçinin qloballaşmanın mühüm aspektləri, ticarət-iqtisadi əməkdaşlığın bütün səviyyələrində - dövlət, korporativ, fərdi – özəl əlaqələrin qurulmasında aparıcı rolu, ÜTT-nin siyasi aspektləri öyrənilmişdir. Göstərilir ki, ticarət-iqtsadi əməkdaşlığın nəzəri-praktiki əsasını təşkil edən beynəlxalq ticarət siyasəti beynəlxalq iqtisadi əlaqələrin iştirakçısı olan dövlətlər tərəfindən beynəlxalq ticarət qaydalarının və nizamlayıcı normalarının, ənənələrinin və vərdişlərinin təsbit edilməsi siyasətidir. Eləcə də bildirilir ki, Ticarət-iqtisadi əməkdaşlıq həm müasir dünya siyasəti, həm də iqtisadiyyatı üçün mühüm əməkdaşlıq növü olmaqla yanaşı, bütün səviyyələrdə - dövlət, korporativ, fərdi – özəl əlaqələrin qurulmasında aparıcı rola malikdir.

Dissertasiya işinin **"Ümumdünya Ticarət Təşkilatı və qlobal siyasi əməkdaşlıq"** adlanan ikinci fəslində qloballaşma fonunda ÜTT-nin siyasi əməkdaşlıq istiqamətləri, bu təşkilatın dünya siyasətinə təsir yolları araşdırılmışdır. Fəslin "**Qloballaşan dünyanın inkişaf istiqamətləri və ÜTT"** adlanan birinci yarımfəsildə ilk öncə qloballaşma konsepsiyası və onun inkişaf istiqamətləri tədqiq edilmişdir. Tədqiqatda qloballaşma qarşısıalınmaz bir "icbari" proses kimi dəyərləndirilmiş və müasir dünyada qloballaşmanın bir sıra cərəyanların beynəlxalq siyasi-iqtisadi əməkdaşlığa təsir edən xüsusiyyətləri – a) beynəlxalq ticarətin genişlənməsi, b) beynəlxalq kapital axınının genişlənməsi və daha dərinləşməsi, c) istehsalın beynəlmiləlləşməsi və d) transmilli münaqişələr, maraqlar və transmilli idarəetmə arasında əlaqə[12] təhlil edilmişdir. Bildirilmişdir ki, müasir dünya inkişafı istiqamətləri siyasi amillərdən daha çox iqtisadi amillərə əsaslanar.

Qloballaşan dünyanın inkişaf istiqamətləri araşdırılarkən BMT-nin Millenium İnkişaf Məqsədləri də təqdim edilmiş və bu məqsədlərdən səkkizinci və yeddinci milenium inkişaf məqsədinin icrasına töhfəsinə də diqqət yetirilmişdir. ÜTT-nin qloballaşma və beynəlxalq münasibətlərdə artan roluna onun təsis strukturu və şəbəkə prinsip əsasında fəaliyyəti də ayrıca olaraq tədqiq edilmişdir. Habelə ÜTT bir sıra ciddi çətinliklərə üzləşir. Ən böyük çətinlik isə onun ticarətin liberallaşdırılması funksiyasının zəifləməsidir. ÜTT-də labüd olan

[12] Robert, G. Global Political Economy: Understanding the International Economic Order / G.Robert. Princeton. Description and chapter 1, "The New Global Economic Order". – 2001. – 24 p.

islahatlar təhlil edilmişdir. Həmçinin qeyd olunmuşdur ki, ÜTT -nin siyasi (ölkələr arasında sülh tərəfdaşlığının moderatoru kimi) və iqtisadi (dünya iqtisadiyyatında vahid hüquq normalarının yaradıcısı kimi) rolunu nəzərə alaraq ÜTT -də bəşəri təhlükəsizlik nəzəriyyəsi əsasında islahların aparılması onu fərdi inkişaf və ehtiyacları əsasında fərdi yanaşma sayəsində uğurlu bir təşkilata çevrilməsinə yardım edər. Xüsusilə COVİD-19 pandemiyası fonunda yaranmış dərin iqtisadi tənəzzül kontekstində modernləşmiş və tam funksional ÜTT-nin olması daha vacibdir və ÜTT-ni beynəlxalq ticarəti tənzimləyən beynəlxalq təşkilat kimi saxlamaq və funksionallığını təmin etmək, təşkilatın yaradılması təşəbbüskarı olan ABŞ və Avropa İttifaqının marağındadır. ÜTT-nin modernləşdirilməsi və təşkilatda islahatların aparılması üçün zaman məsələsidir və 2021-ci il bu sahədə mühüm irəliləyiş ilə yadda qalacağı hesab olunur.

Fəslin **"Ümumdünya Ticarət Təşkilatının müasir beynəlxalq münasibətlərə təsir imkanları və perspektivləri"** adlı ikinci yarımfəslində ÜTT qlobal idarəetmənin iqtisadi aktoru olmaqla yanaşı, həm də siyasi aktor kimi də təhlil edilmişdir. Qeyd edilmişdir ki, ÜTT əvvəldən beynəlxalq ticarəti tənzimləmək aləti kimi yaradılmış olsa da, hazırda onun dünyadakı mövqeyi olduqca genişdir. Qloballaşmanın aləti olan ÜTT, onun əsas aktorlarından və rəmzlərindən biridir. Həmçinin, "yumşaq güc" strategiyasından istifadə edən ÜTT hazırda bir sıra siyasi xüsusiyyətləri, siyasiləşməsi səbəbindən beynəlxalq münasibətlərə siyasi təsiri öyrənilmişdir. Yarımfəsildə ÜTT-nin siyasiləşməsinə gətirib çıxaran altı növ "disfunksiya" və komponentlər ayrıca təhlil edilmişdir.

Tədqiqatda vurğulanmışdır ki, ÜTT-nin yaranması XX əsrin ikinci yarısında aparıcı Qərb dövlətlərinin apardığı neoliberalizm siyasətinin da məntiqi davamı oldu. Bu siyasət qloballaşma proseslərinin intensivləşməsi üçün güclü təkan olmuş və bazar iqtisadiyyatı və həm dövlət daxili, həm də hökumətlər üstü təşkilatların demokratikliyini prioritet olaraq önə çıxarmışdır. Bundan irəli gələrək ÜTT-nin gələcəkdə də beynəlxalq münasibətlərə təsir mexanizmləri göstərilmişdir.

Burada ÜTT-nin beynəlxalq münasibətlərə təsir perspektivlərinin səkkiz istiqaməti sadalanmışdır. Qeyd olunmuşdur ki, müasir beynəlxalq iqtisadi təşkilatların funksionallığı və əhatə dairəsi,

qloballaşmanın təsiri ilə bütün digər təşkilatlar və sahələrdə olduğu kimi, ÜTT də fəaliyyət əhatələrini genişləndirərək özülündə "iqtisadi" olmayan sahələri əhatə etməyə başlamışdır – o təkcə, dünya iqtisadiyyatı, maliyyə işi, investisiya və ticarət ilə deyil, həm də siyasi-politoloji məsələlər, sosial və ətraf mühit, əməyin mühafizəsi məsələləri ilə də məşğul olur.

Həmçinin bu fəsildə qeyd edilir ki, üzv dövlətlər tərəfindən ÜTT qarşısında öhdəliklər götürülür, qanunvericilikləri ÜTT-yə uyğunlaşdırılır, ticarət siyasətini idarəedilən etmiş olur, milli iqtisadiyyatı üçün həssas olan sahələri (aviasiya, kənd təsərrüfatı və s.) iflas riskinə məruz qoyur ki, bəzən bu milli təhlükəsizlik məsələsini də ortaya çıxarır. Beləliklə, yarımbaşlıqda araşdırılan məsələlər göstərir ki, müasir dünyada Ümumdünya Ticarət Təşkilatı beynəlxalq münasibətlərin ən fəal iştirakçılarından biri olmaqla dövlətlərin iqtisadi-siyasi strategiyalarına birbaşa və dolayı təsiri danılmazdır. ÜTT-nin bu funksionallığı sayəsində o, şübhəsiz, gələcəkdə beynəlxalq siyasi təşkilatlar üçün də model ola bilər: onlar tərəfindən artıq ideoloji və ya regional xüsusiyyətlərə görə deyil, praqmatik yanaşma əsasında bütün iştirakçılar üçün əhəmiyyətli olan cari problemlərin həlli ilə məşğul olmaq istiqamətində islahatlar aparıla bilər.

**"Ticarət münaqişələrinin nizamlanmasında Ümumdünya Ticarət Təşkilatının rolu"** adlı üçüncü yarımfəslində təşkilat tərəfindən ticarət münaqişələrinin həllində onun təsir gücü və prosesi konret dövlətlərin ticarət münaqişələri nümunəsində təhlil edilmişdir. ÜTT-də ticarət münaqişələrinin həlli sistemi onun ən nadir funksiyası olmaqla yanaşı, həm də onun şəbəkə prinsipinin yaxşı əyani ünsürüdür. Uruqvay raundunun əsas uğuru olan bu sistem 1995-ci il ÜTT sazişindən sonra daha praktiki əhəmiyyətli mexanizmə çevrildiyi [13] əsaslandırılmış, bu sistemin əsas funksiyaları və faydaları təhlil edilmişdir.

Qeyd olunmuşdur ki, beynəlxalq iqtisadi təşkilatlar, o cümlədən ÜTT-nin getdikcə siyasiləşməsinin səbəbləri müasir reallıqlar və qoballaşma meyilləridir. Yəni ki, ÜTT-nin əsas funksiyası dünya ticarətini və vahid dünya bazarını tənzimləməkdirsə, dünya ticarəti və dünya bazarının özü də ölkələrin xarici siyasəti və onların digər dövlətlər ilə siyasi münasibətlərindən çox asılıdır. Deməli, ÜTT-də öz

---

[13] Практическое руководство по Уругвайскому раунду. Женева. Международный торговый центр ЮНКТАД/ВТО (МТЦ. Секретариат Содружества. (CS) - 1995.

funksiyalarını yerinə yetirərkən istər-istəməz siyasiləşir.

Həmçinin bu yarımfəsildə ÜTT hüququ araşdırılmışdır və qeyd olunmuşdur ki, mübahisələrin həlli sisteminin əsasında ÜTT hüququ deyilən ayrıca bir tədqiqat sahəsi formalaşmışdır. Ümumdünya Ticarət Təşkilatında üzv dövlətlər arasında çoxtərəfli sazişlər və həmin ölkələrin ÜTT prinsip və qaydalarına riayət etmək öhdəliyi əsasında xüsusi bir hüquq formalaşmışdır. Həmin çoxtərəfli sazişlər ticarət siyasətinin və hüququnun da əsasının təşkil edir.

ÜTT beynəlxalq münasibətlərə təkcə beynəlxalq ticarətin nizamlayıcısı, ticarət siyasətlərinin formalaşdırılmasına təsir və yumşaq güc vasitələri ilə deyil, həm də onun funksiyaları əhatəsindən daha geniş müstəvidə - əməyin mühafizəsi, ətraf mühitin mühafizəsi, insan hüquqları, əqli mülkiyyətin qorunması kimi sahələr vasitəsilə də təsir imkanlarına malikdir.

**“Azərbaycan Respublikasının ÜTT ilə əməkdaşlıq təcrübəsi və inkişaf perspektivləri”** adlı üçüncü fəsil ÜTT ilə Azərbaycan Respublikasının əməkdaşlıq tarixi və mümkün perspektivlərinə həsr edilmişdir. Fəslin **“Azərbaycanın Ümumdünya Ticarət Təşkilatı ilə əməkdaşlıq zəmini”** adlı yarımfəslində Azərbaycanın regional və qlobal səviyyədə fəaliyyəti, o cümlədən beynəlxalq aləmdə əməkdaşlığı genişləndirərək və dərinləşdirərək müstəqil dövlət kimi bir sıra beynəlxalq təşkilatlara üzvlüyü və əməkdaşlıq qurması tədqiq edilmişdir. Burada həm də, Avrasiya Gömrük İttifaqı ilə münasibətdə Azərbaycanın mövqeyi, habelə beynəlxalq iqtisadi təşkilat olan ÜTT ilə regional iqtisadi təşkilat olan Avrasiya Gömrük İttifaqı müqayisəsində, siyasi güc dövlətləri ilə münasibətlərini tarazlaşdırılmış saxlamaq zəruriliyi təsvir edilmişdir. Yarımfəsildə Azərbaycanın ÜTT-yə üzvlük zəmini və üzvlüyə hazırlığını bir sıra oxşar ölkənin nümunəsində üç hipotez - a) ölkələrin sənayeləşdirilməsi səviyyəsi,b) iqtisadi siyasətlərin əlaqələndirilməsində hökumətin rolu, c) ÜTT-yə üzvlüyün gecikməsi istiqamətində araşdırılmışdır.

Qeyd olunmuşdur ki, Azərbaycan tam hazır olduğu halda ÜTT-yə üzv olmalıdır. ÜTT-yə üzvlük milli iqtisadiyyatı məhv etməyəcək, əksinə rəqabəti artırmaqla bizneslərin möhkəmlənməsinə, daha dayanıqlı olmasına və xarici bazarlara çıxmasına kömək edəcəkdir. Bazarlar da keyfiyyətli və daha aşağı qiymətli mallar olacaq. Dünya ticarətinin formalaşmasında Azərbaycan iştirakçı olacaqdır. Bunun

üçün kənd təsərrüfatı tam inkişaf etməli, beynəlxalq standartlara uyğunlaşdırılmalı və dövlət müəssisələri əlverişli şəraitdə özəlləşdirilməlidir.

ÜTT ilə Azərbaycanın əməkdaşlığının inkişaf etməkdə olan ölkə (İEOÖ) qismində aparılması ölkənin bu istiqamətdə mövcud hədəflərindən biridir. Bu əməkdaşlığın zəmini kimi ÜDM-in ümumi həcmində neftsektorunun xüsusi çəkisinin 37,2% olması, icraxın 89 %-nin neft və neft məhsullarının payına düşməsi, milli iqtisadiyyatın "Holland sindromu" riskinin istisna olunmaması, torpaqların 20 %-nin yenicə işğaldan azad olunmasının, ölkədən xeyli qaçqın və məcburi köçkün olması kimi faktlar Azərbaycanın ÜTT-yə İEOÖ statusu ilə üzv olunmasını əsaslandıan arqumentləri göstərə bilərik.

Fəslin **"Azərbaycan ilə əlaqələrin qurulması və mövcud vəziyyəti"** adlanan ikinci yarımfəslində və ölkənin üzvlük yolu və perspektivlərinə siyasi-diplomatik baxış təqdim edilmiş, onun inkişaf etməkdə olan ölkə qismində daha əlverişli şərtlər ilə üzvlüyə qəbul istəyi təhlil edilmişdir.

Bu yarımfəsildə bildirilir ki, Azərbaycan ÜTT daha əlverişli şərtlər ilə daxil olmağa çalışır. Ona görə də danışıqların yubanması bir tərəfdən onun maraqların uyğundur. Azərbaycan üzrə ÜTT katibliyində yaradılmış işçi qrupun indiyə kimi keçirilmiş 13 görüşü haqqında xülasə verilmişdir. Həmçinni Azərbaycan Respublikasının ÜTT-yə üzvolmasına hazırlıq işləri üzrə Komissiyanın 27 dekabr 2019-cu il tarixli 821s saylı Sərəncamı ilə qarşıya qoyulmuş üzvlük hədəfləri ətraflı müzakirə edilmişdir. Azərbaycam üçün bu üzvlüyün gətirə biləcəyi mümkün nəticələr öyrənilmişdir.

Burada Azərbaycanın ÜTT-yə üzv olmaq məqsədləri aydın təsvir edilmişdir:

- Dünya iqtisadiyyatı sisteminə inteqrasiya prosesini sürətləndirmək;
- ÜTT-yə üzv olan ölkələrin bir-birinə verdikləri güzəştlərdən faydalanmaq;
- Dünyanın əksər ölkələri ilə ÜTT tərəfindən qəbul edilmiş ümumi qaydalar əsasında ticarət əməliyyatları həyata keçirmək;
- Ölkədə aparılan iqtisadi islahatlara beynəlxalq təşkilatlar, eləcə də inkişaf etmiş ölkələr tərəfindən yardımın artırılmasına nail olmaq;
- ÜTT qaydalarını tətbiq etdikdən sonra daha çox birbaşa xarici

sərmayə cəlb etmək;

- ÜTT-nin mübahisələrin həlli mexanizmindən istifadə etmək imkanı əldə etmək;

**"Azərbaycan – ÜTT əməkdaşlığının perspektivləri"** adlı üçüncü yarımfəsildə ÜTT üzvlüyünün ölkəyə gətirəyə biləcəyi siyasi-iqtisadi faydalar ilə yanaşı mənfi təsirləri də əsaslandırılmışdır. Bu yarımfəsildə həm də ölkənin üzvlük mövqeyi 6 prinsipə-məqsədə əsaslandırılır: 1) Azərbaycan Respublikasının ÜTT çərçivəsində güzəştlər əldə etməsi (Rusiyaya verilən yeddi illik güzəştlər müddəti kimi); 2) ÜTT qaydalarının tətbiqi və qanunvericiliyi ona uyğunlaşdırmaq üçün maksimum uzunmüddətli keçid dövrünün verilməsi; 3) ölkə iqtisadiyyatı və sənayesi üçün əhəmiyyət kəsb edən mallar üzrə yüksək idxal gömrük rüsumlarının tətbiqi; 4) rüsumların aşağı salınması mütləq şərt olduğu üçün heç olmazsa daha az əhəmiyyətli malların rüsumlarını endirilməsinə nail olunması; 5) xidmətlər sahəsində danışıqlar zamanı inkişaf etməkdə olan ölkələrə verilən xüsusi və diferensial güzəştli rejimin Azərbaycana da verilməsi; və 6) kənd təsərrüfatı sahəsində subsidiyalar üzrə danışıqlar zamanı illik kənd təsərrüfatı məhsulu istehsalının 10% həcmində subsidiya verilməsi[14].

Həmçinin bu fəsildə Azərbaycanın ÜTT-yə üzvlüyü prosesi indiki kontekstdə surətləndirilməli olduğu göstərilir. Müəllif bunu aşağıdakı amillərlə izah edir: Birincisi, Avrasiya regionunda ölkələr xarici investisiyalardan ötrü əsl rəqabət aparır. Üzv olaraq daha şəffaf və səmərəli biznes mühiti qurmuş və dünya bazarına təhlükəsiz çıxış əldə etmiş ölkələr investisiyaları öz ölkələrinə cəlb edə bilirlər. İkincisi, üzv dövlətlər ÜTT qaydaları ilə ticarət aparılmasını yaxşı mənimsəyir, bu sahədə güclü təcrübə toplayır və ÜTT üzvü olmayan ölkələrlə də ticarət zamanı öz ticarət hüquqlarının irəli sürür, həmin standartlara istinad edir. Üçüncüsü, ÜTT üzv dövlətlərinin sayı artdıqca Azərbaycanın aparılmalı olduğu ikitərəfli, çoxtərəfli müzakirələrin sayı, hər bir dövlət qarşısında üzvlüyünün dəstəklənməsi üçün lobbiçilik səyləri, regional tərəfdaşların xüsusi tələblərinin sayı da artır. Dördüncüsü, Doha raundundan sonra Bali raundu da Azərbaycan qarşısına yeni tələblər qoyur ki, bu da prosesi daha çətinləşdirir. Növbəti raundda da şərtlər

[14] Bayramov, V.İ. Azərbaycanın ÜTT-ə Üzvlük Prosesinin Qiymətləndirilməsi üzrə Siyasət Sənədi / V.İ.Bayramov. – Bakı: İqtisadi və Sosial İnkişaf Mərkəzi, – 2010. – 28 s.

sadələşməyəcək, əksinə çətinləşəcəkdir.

ÜTT-yə üzv olmaq Azərbaycanın Çinin bir kəmər, bir yol (BRI) təşəbbüsünün üstünlüklərini maksimum dərəcədə istifadə etməsi və Çinə ixracatını artırması üçün vacibdir. Orta Dəhlizə inteqrasiya edib onun üstünlüklərindən tam faydalanmaq üçün Azərbaycan ÜTT-yə üzv olmalıdır. Bəllidir ki, Çin ÜTT üzvü olmayan ölkələrə "ən sevimli ölkə" (most favourite nation – MFN) statusu ilə yanaşmır. MFN digər ölkələr arasında ayrıseçkiliyin edilməməsinə dair öhdəlikdir. Yəni, oxşar məhsullara mənşə ölkəsindən asılı olmayaraq bərabər şəkildə münasibət göstərilməlidir. MFN prinsipi ÜTT üzvlərindən tələb edir ki, oxşar məhsula münasibətdə istənilən ölkəyə tətbiq edilən rejim digər ÜTT üzv ölkəsinə tətbiq edilən rejimdən yaxşı ola bilməz. Bu baxımdan da Azərbaycanın Çin ilə əməkdaşlığı və bunun sayəsində dünya iqtisadiyyatında idxal-ixrac həcminin artırılması üçün də ÜTT üzvlüyü perspektivlidir.

Dissertasiyanın **Nəticə** hissəsində aparılmış tədqiqata yekun vurulmuş, müdafiəyə çıxarılan müddəalar üzrə aşağıdakı nəticələr təsvir edilmiş, qarşıya qoyulan vəzifələrin yerinə yetirilmə ardıcıllığı və başlıca ümumiləşdirmələr və müvafiq tövsiyələr əksini tapmışdır. Müəllif belə qənaətə gəlmişdir ki, dünya siyasətinin aktoru kimi müasir beynəlxalq iqtisadi təşkilatların rolu artır və onlar "qeyri-iqtisadi"sahələrin tənzimlənməsində də iştirak edirlər. ÜTT qloballaşan dünya nizamının tənzimlənməsinə təsir edir, habelə bu təsirin uzunmüddətli saxlanması üçün ÜTT-də ciddi islahatlar aparılması şərtdir. COVİD-19 pandemiyası fonunda yaranmış dərin iqtisadi tənəzzül kontekstində modernləşmiş və tam funksional ÜTT-nin olması indi daha vacibdir. ÜTT-ni beynəlxalq ticarəti tənzimləyən beynəlxalq təşkilat kimi saxlamaq və funksionallığını təmin etmək ABŞ, Aİ və Çin kimi ən böyük iqtisadiyyatların marağındadır. ÜTT-nin hər üç funksional mərhələsində – ticarətin liberallaşdırılması və yeni ticarət qaydalarının yaradılması, ticarət siyasətlərinin monitorinqi və mübahisələrin həlli sahəsində, o cümlədən pandemiyanın labüd etdiyi və ÜTT üçün də tam işlənməmiş rəqəmsal ticarət və elektron kommersiya üzrə islahatlara ehtiyac vardır.

Azərbaycan Respublikası ÜTT-yə üzv olması ilə əlaqədar İşçi Qrupu vasitəsilə danışıqlarını davam etdirir. Təşkilata üzvlük rəqabəti artırmaqla bizneslərin möhkəmlənməsinə, daha dayanıqlı olmasına və

xarici bazarlara çıxmasına kömək edəcəkdir. Dünya ticarətinin formalaşmasında Azərbaycan iştirakçı olacaq və nə qədər ölkə çox sənayeləşmiş olarsa, o qədər ÜTT üzvlüyündən çox fayda əldə edə bilər. ÜTT-yə üzv olmaq Azərbaycanın dünya ticarətinə inteqrasiyası prosesini sürətləndirəcək, üzv ölkələrin bir-birinə verdiyi güzəştlərdən faydalanmaqla, qlobal ticarət əməliyyatları həyata keçirərək ölkəni gücləndirəcək. Aparılan islahatlar və əldə edilən texniki yardım vasitəsilə daha qabaqcıl ticarət siyasəti formalaşacaq, ölkəyə daha çox sərmayə cəlb olunacaq və Azərbaycan ÜTT-nin mübahisələrin həlli sistemindən istifadə edərək, daxili məhsullarını dünya bazarında qoruya biləcək. Həmçinin, ölkənin Çinin bir kəmər, bir yol (BRI) təşəbbüsünün üstünlüklərindən maksimum dərəcədə istifadə edə və Çinə ixracatını artıra biləcək.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı elmi işlərində öz əksini tapmışdır:**

1. Азербайджан на пути в Всемирную Торговую Организацию: ожидаемые перспективы // Журнал Вопросы Политологии, научный журнал. Выпуск 10 (74), Том 11, 2021. Москва, Россия. 2685 стр. с. 2943-2954.
2. Qloballaşan dünyanın inkişaf istiqamətləri və Ümumdünya Ticarət Təşkilatı // Geostrategiya Jurnalı, Beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnal. № 05 (65), Sentyabr-Oktyabr 2021. Bakı, Azərbaycan 172 səh. s. 20-26
3. Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzvlük prosesi və mümkün perspektivlər // Gənc Tədqiqatçı, elmi-praktiki jurnal. VII cild, № 2, 2021. Bakı, Azərbaycan 274 səh. s. 253-261
4. Azərbaycan və Ermənistanın Ümumdünya Ticarət Təşkilatına üzvlük prosesində ərazi bütövlüyü məsələsi // "Qafqaz Böyük Sarsıntılar Şəraitində: tarixi təcrübə, müasir dövr və perspektivlər" mövzusunda respublika elmi nəzəri konfransı. Elmi Məruzələr. AMEA Rəyasət Heyəti. Azərbaycan Qafqazşünaslıq İnstitutu. 4 Dekabr 2017-ci il. Bakı, Azərbaycan.
5. Azərbaycanın ÜTT-yə üzvlüyü üçün yaranmış zəmin və digər ölkələrin üzvlük nümunəsinin müqayisəli təhlili // Strategiya Jurnalı,

Aylıq İctimai-siyasi, elmi-populyar jurnal. № 03 (39), May-İyun 2017. Bakı, Azərbaycan. 76 səh. s. 52- 55

6. Neft-qaz resursları ilə zəngin ölkələrin Ümumdünya Ticarət Təşkilatı üzvlüyü nümunəsində Azərbaycanın ÜTT-yə üzvlük perspektivləri // Qafqazşünasların 1-ci Beynəlxalq Forumu. Elmi Məruzələr 2 kitabda. 2-ci Kitab. AMEA Rəyasət Heyəti. Azərbaycan Qafqazşünaslıq İnstitutu. 17-18 Aprel, 2017. Bakı, MTM İnnovation, 2017. 564 səh. s. 492- 497

7. Müasir beynəlxalq münasibətlərdə ticarət – iqtisadi əməkdaşlıq məsələləri // AMEA-nın Xəbərləri. İqtisadiyyat Seriyası. Elmi-praktiki jurnal. 2015-3 (may-iyun). Bakı -2015. 97 səh. s. 87-93

8. Asessing Partnership with WTO and Euroasian Economic Union: pros and cons for Azerbaijan // THE CAUCASUS AND THE WORLD. International №19. The Caucasian International Research Center for Geohistory and Geopolitics. Tbilisi-2015. 181 p. s. 9-13

9. ÜTT-nin ticarət münaqişələrinin həlli sistemi və ÜTT-də Transatlantik və transpasifik mübahisələr // Turizm və Qonaqpərvərlik tədqiqatları. Beynəlxalq jurnal. Vol. 4, Number 1, 2015. Azərbaycan Turizm İnstitutu. Bakı, Renessans MMC, 2015. 134 səh. s.72-77

10. The World Trade Organization, multilateral trade system and regionalism // Journal of Qafqaz University. History, Law and Political Sciencies. International Journal. Volume 2. December-2014. Baku. 236 səh. s.197-202

11. Political features and role of the International Economic Organizations in World Policy // The Third İnternational Congress on Social Sciences and Humanities. Proceedings of the Congress (November, 2014). Ed. Busch P. East-West Association for Advanced Studies and Higher Education. Vol.1, November, 2014. Vienna, Austria. 311 p. s.139-145

12. Ümumdünya Ticarət Təşkilatında institusional islahatların edilməsi vacibliyinin qiymətləndirilməsi // Sivilizasiya Elmi-Nəzəri Jurnalı, 9\2014. Bakı Avrasiya Universiteti. Bakı 2014. 196 səh s.187-191

13. World Trade Organization: importance of Institutional Reforms // Теоретические и прикладные аспекты современной науки. Сборник научных трудов по материалам V Международной

научно-практической конференции. В шести частях. Под.ред. М. Г. Петровой. г. Белгород. Ноябрь, 2014. Часть IV. 264 с. s.260-263

14. WTO trade disputes settlement system and handling transatlantic and transpacific disputes // Austrian Journal of Humanities and Social Sciences. Scientific Journal. № 9-10. (September-October). East-West Association for Advanced Studies and Higher Education. Vienna, Austria. 2014. 359 p. s. 159-162

15. Ticarət Mübahisələrinin həllində Ümumdünya Ticarət Təşkilatının rolu // Doktorantların və Gənc Tədqiqatçıların XVIII Respublika Elmi Konfransının Materialları. Azərbaycan Respublikası Təhsil Nazirliyi. 2 cilddə. II Cild. Bakı: Mütərcim – 2013. 504 səh s. 278 – 280

Dissertasiyanın müdafiəsi 24 dekabr 2021-ci il tarixində saat 14:00-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı şəhəri, Lermontov küç., 74

Dissertasiya işi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının elmi kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 23 noyabr 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 19.11.2021
Kağızın formatı: A5
Həcm: 47151
Tiraj: 100